# İrəvan ədəbi-mədəni mühiti və milli mətbuatımız

**XIX əsrin sonuncu rübündə Azərbaycanda milli mətbuatın yaranması və inkişafı Qafqazda Azərbaycan türklərinin sıx məskun olduğu qədim İrəvan əyalətini və onun mədəni mərkəzi sayılan eyni adlı şəhərin ədəbi-mədəni mühitini də əhatə etmişdir.**



1875-1877-ci illərdə 56 nömrəsi işıq üzü görmüş “Əkinçi” qəzetinin fəaliyyətini ilk günlərdən İrəvan ziyalıları da böyük maraqla qarşılamış, onun xalqımızın mədəni, ictimai-siyasi tərəqqisində, milli özünüdərkin formalaşmasında roluna böyük ümid bəsləmişlər. Böyük Həsən bəy Zərdabinin milli fəalların köməyi ilə ərsəyə gətirdiyi ilk anadilli qəzetimizin uğur qazanması, qısa zamanda artmış nüfuzu İrəvan ziyalılarını da fəallaşdıraraq mətbuat aləminə cəlb etmişdir.

İrəvanda yaşayıb yaradan, ədəbi-mədəni həyatın önündə gedən, ədəbi-bədii sözün görkəmli xadimləri Məşədi İsmayıl Hacı Kazımzadə (Bəzmi), Mirzə Kazım Qazi Əsgərzadə Axund Əhmədov (Mütəlle), Hacı Seyid Rza Əmimzadə (Sabir) kimi şair və ziyalılar “Əkinçi”nin İrəvan üzrə təmsilçiləri olmaqla yanaşı, müxtəlif janrlarda dəyərli bədii nümunələrini də “Əkinçi”nin səhifələrində çap etdirməyə nail olmuşlar. “Əkinçi”nin fəaliyyətinə son qoyulduqdan sonra Tiflisdə nəşr edilmiş “Kəşkül” (1883- 1891), “Ziya” (1879-1880), “Ziyayi-Qafqaziyyə” (1880-1884), “Şərqi-Rus” (1903-1905); Bakıda çıxmış “İrşad” (1905-1908), “Təkamül” (1906-1907), “Füyuzat” (1906-1907), “Həyat” (1911-1912), “İqbal” (1912-1915), “Sovqat” (1912-1915), “Şəlalə” (1913-1914), “Dirlik” (1914-1916), “Açıq söz” (1915-1918), “Musavat” (1917); Şərqin müxtəlif ölkələrində buraxılmış “Sürəyya” (Qahirə), “Həblül-mətn” (Kəlküttə), “Tərcüman” (Bağçasaray), “Nasiri”, “Ənkəbud” (Təbriz) “Suri-İsrafil” (Tehran), “Nəsimi şimal” (Rəşt), ”Şeyda”, “Əxtər” (İstanbul) və başqa qəzet-jurnallar da İrəvan ziyalıları arasında da geniş yayılmış, maraqla oxunmuş, tərəfdarlar qazanmışdır. Müxtəlif dillərdə çıxan mətbuat orqanları da İrəvanda yayılmışdır.

Sonrakı dövrdə “Müsavat” qəzetinin İrəvanda yayılmasında şəhər üzrə “Müsavat” fırqəsinin sədri Xəlil bəy Kazımbəyovun böyük xidmətləri olmuşdur. Müsavatçılıq ideyası ilə bağlılıqlarına görə sovet dövründə Xəlil bəy və qızı Bağda xanım repressiya qurbanı olmuşlar.



İrəvanda bədii fikrin, ictimai-siyasi mühitin canlanmasında və inkişafında bu mətbuat orqanlarının mühüm rolu olmuşdur. İrəvanda Azərbaycan ədəbi-mədəni, ictimai-siyasi mühitinin inkişafında xidmətlər göstərən Mirzə Əlixan Şəmsül Hükəma (Ləli) “Şərqi-Rus”, Mir Abbas Mir Bağırov “İrşad”, Cabbar Əsgərzadə “Kavkaz”, “Molla Nəsrəddin”, “Məzəli”, Mirzə Naseh İrəvani “Yeni İrşad”, Əli Məhzun Rəhimov “Molla Nəsrəddin”, Mirzə Cabbar Məmmədov “Yeni iqdam” qəzetlərinin İrəvan üzrə ən fəal müxbirləri olmaqla yanaşı, həmin nəşrlərin bölgədə oxucu auditoriyası qazanmasında da mühüm rol oynamışdılar.

İrəvanda yaşayan azərbaycanlı ziyalılar bu qəzet və jurnalların səhifələrində dövrün mədəni, sosial-siyasi, iqtisadi məsələləri ilə yaxından tanış olurdular. Digər tərəfdən isə bu mətbu orqanlar həm İrəvanda, həm də Azərbaycanda yaşayan, yazıb-yaradan sənətkarlar arasında qarşılıqlı ədəbi-mədəni əlaqələrin, yaradıcılıq əməkdaşlığının yaranmasında da böyük rol oynayırdı.

“Molla Nəsrəddin” jurnalı (1906-1931) və onun yoluna qoşulan “Bəhlul” (1907), “Zənbur” (1909- 1910), “An” (1910-1911), “Kəlmiyyət” (1912- 1913), “Mirat” (1910), “Məzəli” (1914-1915), “Babayi-Əmir” (1915-1916), “Tuti” (1914-1917) kimi satirik jurnallar da İrəvanda yayılmış, populyarlıq qazanmışdır. Bu jurnallarda İrəvanın ictimai-siyasi, ədəbi-mədəni həyatından bəhs edən xeyli felyetonlar, məqalələr, xəbərlər, satirik şeirlər, elanlar və başqa səpkili yazılar dərc edilmişdir.

“Molla Nəsrəddin” İrəvanda və ətraf yerlərdə daha çox məşhurlaşmışdır. Jurnalın təkcə şəhərdə deyil, Zəngibasar, Vedibasar, Ağbaba, Basarkeçər və digər bölgələrdə də oxucuları var idi. “Molla Nəsrəddin’ təkcə Cənubi Qafqazda deyil, Yaxın Şərqdə də satirik mətbuatın yaranmasına güclü təsir göstərmişdir. Onun təsiri altında meydana gələn satirik jurnallardan biri də 22 fevral 1914-cü il tarixdə ilk nömrəsi işıq üzü görən “Lək-Lək” (“Leylək”) satirik jurnalıdır.

Mətbuat tədqiqatları İrəvanda Azərbaycan mətbuatının yaranmasını 22 fevral 1914-cü ildən “Lək-Lək”in nəşr edildiyi tarixdən başlandığını qeyd edirlər. Apardığımız araşdırmalar isə İrəvanda Azərbaycan mətbuatının nə vaxt yaranmasına aydınlıq gətirməyə əsas verir. Birincisi, necə ola bilər ki, XIX əsrdə əhalisinin 75 faizini azərbaycanlılar təşkil edən İrəvan şəhəri mədəniyyətinin bütün sahələrində ən qabaqcıl mərkəzlərdən biri olduğu halda, 1882-ci ildə milli teatrın meydana gəldiyi bir məkanda ana dilində dövri mətbuat orqanı 1914-cü ilə təsadüf etsin? İkincisi, ola bilərdimi ki, İrəvanda Azərbaycan mətbuatının ictimai-siyasi, bədii fikrinin aparıcı simaları Cabbar Əsgərzadə, Əli Məhzun, Mir Məhəmməd Mir Fətullayev, Əli Məhzun Rəhimov, Mirzə Əlixan Şəmsül Hükəma, Hacı Seyid Rza Əmirzadə, Məşədi İsmayıl Hacı Kazımzadə, Mirzə Kazım Qazi Əsgərzadə Axund Əhmədov, Mir Abbas Mir Bağırov, qabaqcıl maarif xadimləri Abbas Razi Məmmədzadə, Mirzə Naseh İrəvani, Mirzə Əli Məhəmməd Xəlilov, Axund Məhəmməd Bağır Qazızadə, Mirzə Cabbar Məmmədzadə, Mirzə Əli Məhəmməd, Məmmədəli Nasir, Mirzə Məhəmməd Axundov və burada yaşayıb yaradan onlarla digər ziyalı Cənubi Qafqazda ana dilində ilk dərslikləri yaratdıqları halda ana dilində qəzet, jurnal buraxmağın vacibliyini dərk etməsin və bu ideyanı gerçəkləşdirmək üçün heç bir təşəbbüs göstərməsinlər?

Apardığınız araşdırmalardan məlum olur ki, İrəvanda yaşayan azərbaycanlı ziyalılar 1880-ci illərdə maarifi, mədəniyyəti, ədəbiyyatı inkişaf etdirmək, milli mətbuat orqanları yaratmaq üçün bu yolda ardıcıl mübarizə aparmışlar. Onlar mütərəqqi ideyaları təbliğ edən, xalqın istək və arzularını ifadə edə bilən bir mətbuat orqanının yaradılması yönündə ciddi səy və fədakarlıq göstərmişlər. Bunu dövrün ədəbi-mədəni, ictimai-siyasi proseslərində baş verən mütərəqqi dəyişikliklər də zəruri edirdi.

İrəvanda belə bir qəzetin nəşrinə ilk dəfə 1905-ci ildə Mirzə Cabbar Əsgərzadə təşəbbüs edir. O uzun illər həyata keçirmək istədiyi bu arzusunun 1905-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdikləri qətliamlar, qırğınlar zamanı öz xalqının hüquqlarını qətiyyətlə müdafiə etdiyinə görə bir neçə aylığa həbsə atıldığı həbsxanada “Molla Nəhib” və “Mollabaşı” adlı həftəlik dərgilər nəşr etdirərək gerçəkləşdirməyə nail olmuşdur. Bütün istedadını, yaradıcılıq qüvvəsini İrəvanda yeni ədəbi-mədəni hərəkatın inkişafına sərf edən C.Əsgərzadə dərgilərə yazıları özü yazmış, rəsmləri də özü çəkmişdir. Hətta jurnalların bir neçə nüsxəsini müxtəlif vasitələrlə həbsxanadan çıxartdırıb yaydırmışdır. C.Əsgərzadə xatirələrində bu haqda məlumatları xüsusi qeyd etmişdir.

Bundan əlavə, Məmmədriza Ələrdəbilinin “Mirzə Cabbar Əsgərzadə Bağçaban və onun ana dilimizdə yaratdığı bədii əsərlərdən örnəklər” adlı irihəcmli əsərində yer alan faktlar da İrəvanda Azərbaycan mətbuatının yaranması tarixinə bir daha aydınlıq gətirir. C.Əsgərzadənin qızı Səminə xanımın mühafizə etdiyi zəngin arxivdəki materiallar da bunu bir daha təsdiq edir.

Böyük alimimiz, professor Abbas Zamanovun Səminə xanımla olan yazışmalarında da bu barədə maraqlı məlumatlar əksini tapmışdır. Mirzə Cabbar Əsgərzadənin yaradıcılığına nəzər saldıqda onun rəssamlıq sahəsində də çox istedadlı olduğunu görürük. Əldə etdiyimiz bu faktlar mətbuat tariximizin qaranlıq səhifələrinə işıq salır. İrəvanda milli mətbuatımızın yaranması tarixində ilk nümunə kimi qəbul etmək olar. Beləliklə, “Molla Nəhib” və “Mollabaşı” adlı həftəlik dərgiləri İrəvan mətbuatının ilk örnəkləri kimi qəbul etmək olar.

***Cəlal ALLAHVERDİYEV,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

Xalq qəzeti .- 2024.- 2 iyun, № 115.- S.8.